AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

11 SENTYABR 2018-ci il ÇƏRŞƏNBƏ AXŞAMI № 201 (6234) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## İsmayıllı rayonunun İvanovka kənd Mədəniyyət Sarayının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İsmayıllı rayonunun İvanovka kənd Mədəniyyət Sarayının əsaslı təmiri, zəruri avadanlıq və inventarla təchizatı məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan İsmayıllı Rayon İcra Hakimiyyətinə 2,5 milyon (iki milyon beş yüz min) manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 sentyabr 2018-ci il.**

## Şabran rayonunun Şabran-Əmirxanlı-Qazbabalı avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Altı min nəfər əhalinin yaşadığı 5 yaşayış məntəqəsini birləşdirən Şabran-Əmirxanlı-Qazbabalı avtomobil yolunun tikintisi məqsədi ilə Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 8,6 milyon (səkkiz milyon altı yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 10 sentyabr 2018-ci il.**

# Qırğızıstan KİV-ləri Prezident İlham Əliyevin Çolpon-Ata şəhərinə səfərini geniş işıqlandırıb






ЕДИНЫЙ КЫРГЫЗСТАН – ЕДИНЫЙ НАРОД

СЛОВО КЫРГЫЗСТАНА

ОБЩЕНАЦИОНАЛЬНАЯ ГАЗЕТА

ISSN 1694-5492
Основана 23 марта 1925 года
№ 96 (23657)
www.slovo.kg

5 сентября 2018, среда

Президента пригласили в Азербайджан

*Президент Сооронбай Жээнбеков встретился с Президентом Азербайджана Ильхамом Алиевым, прибывшим в Кыргызстан для участия в заседании саммита глав государств ССТГ.*

Сооронбай Жээнбеков, поприветствовав коллегу, выразил удовлетворение хорошей возможностью обсудить актуальные вопросы сотрудничества между странами.

"Кыргызстан придаёт очень важное значение дальнейшему развитию братских отношений, построенных на взаимном доверии и уважении. Мы готовы к открытой и содержательной беседе с нашими друзьями по всем аспектам. Я искренне поздравляю вас со 100-летием Азербайджанской Демократической Республики", - отметил Сооронбай Жээнбеков, поблагодарив Ильхама Алиева за его приезд, несмотря на запланированную официальную поездку.

В свою очередь лидер Азербайджана поблагодарил за приглашение посетить братский Кыргызстан в таком знаменательном месте, как жемчужина Кыргызстана - Иссык-Куль.

"Это место важно для всего мира, является уникальным природным памятником, который радует кыргызстанцев и всех, кто приезжает сюда. Хотел бы поздравить вас с организацией саммита Совета сотрудничества тюркоязычных государств. Это важное мероприятие, которое подтвердит наше единство и сотрудничество, очень хорошая возможность встретиться и обсудить наши двусторонние отношения. Я придаю важное значение сотрудничеству с Кыргызстаном. Мы намерены его наращивать по всем направлениям - политическим, экономическим, в транспортной сфере раскрываются очень хорошие возможности", - отметил Ильхам Алиев и добавил, что эта встреча даст новый толчок отношениям, которые и дальше станут успешно развиваться.

Ильхам Алиев пригласил Сооронбая Жээнбекова с официальным визитом в Азербайджан.

Затем главы государств обсудили актуальные вопросы сотрудничества между Кыргызстаном и Азербайджаном, практической реализации ранее достигнутых договорённостей и перспектив дальнейшего развития двустороннего взаимодействия.

Президент Сооронбай Жээнбеков пригласил Президента Ильхама Алиева с официальным визитом в Кыргызстан, подчеркнув, что это станет важным шагом на пути дальнейшего укрепления сотрудничества двух стран.

Фото Султана ДОСАЛИЕВА.

**Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstanın Çolpon-Ata şəhərinə səfəri, Prezident Sooronbay Jeenbekov ilə görüşü, Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Sammitində iştirakı və çıxışı ölkənin nüfuzlu kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb.**

Yazılarda Azərbaycanın və Qırğızıstanın dost və qardaş ölkələr olduğu vurğulanır, əməkdaşlığın ölkələrimiz və xalqlarımız üçün səmərəli olduğu bildirilir.

Qırğızıstanın telekanalları və böyük oxucu auditoriyasına malik olan sayasat.kg portalı, Qırğızıstan Hökumətinin rəsmi saytı - gov.kg, kabar.kg, kaktus.media, vesti.kg, 24.kg, sputnik.kg, kginform.com, Qırğız Respublikası Prezidentinin rəsmi saytı - president.kg, stanradar.com, İctimai Teleradio Yayım Korporasiyasının rəsmi saytı, ktrk.kg, akipress.org, bulak.kg, kabarlar.kg, asiatv.kg portalları səfər haqqında silsilə materiallar yayıb.

Qırğızıstanın dövlət qəzetləri olan "Qırğız tuusu" ("Qırğız sözü") və "Slovo Kırqızstana"da, populyar "Veçernıy Bişkek" qəzetində də səfərlə bağlı geniş məqalələr dərc olunub.

Yazılarda Prezident Sooronbay Jeenbekovla görüşdə Prezident İlham Əliyevin sözlərindən sitat gətirilib: "Biz Qırğızıstanla əməkdaşlığa mühüm əhəmiyyət veririk. Əməkdaşlığı bütün istiqamətlər üzrə - həm siyasi, həm də iqtisadi sahələrdə artırmaq niyyətindəyik". Dövlətimizin başçısının Sammitdəki çıxışından da fikirlərə yer verilib: "Azərbaycan bütün türkdilli dövlətlərlə sıx əlaqələr saxlayır. Bu əlaqələr gündən-günə möhkəmlənir və genişlənir. Bizim əlaqələrimiz siyasi, iqtisadi, ticarət, energetika, nəqliyyat, humanitar sahələri əhatə edir və biz bütün istiqamətlər üzrə gözəl nəticələr görürük. Ölkələrimiz beynəlxalq təşkilatlarda da bir-birinə dəstək verir və bu dəstək çox önəmlidir. Hesab edirəm ki, gələcək illərdə beynəlxalq təşkilatlar çərçivəsindəki fəaliyyətimizlə bağlı əlavə addımlar atılacaqdır". Qeyd edilir ki, Azərbaycan Prezidenti Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının üzvlərini Türk Şurası çərçivəsində regional təhlükəsizlik məsələlərini müzakirə etməyə çağırıb.

Qırğızıstan mətbuatı yazır ki, İlham Əliyev Sammitdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunub. Dövlət başçısı deyib: "Azərbaycan uzun illərdir ki, Ermənistanın işğalından əziyyət çəkir. İyirmi ildən çoxdur ki, beynəlxalq birlik tərəfindən Azərbaycanın ayrılmaz hissəsi kimi tanınan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 rayon Ermənistanın işğalı altındadır. Bu işğal nəticəsində torpaqlarımızın təxminən 20 faizi Ermənistan tərəfindən zəbt olunmuş, bir milyondan çox azərbaycanlı öz doğma torpağında qaçqın və köçkün vəziyyətinə düşmüşdür. Xalqımıza qarşı etnik təmizləmə siyasəti aparılmışdır, hərbi cinayətlər, Xocalı soyqırımı törədilmişdir. Bu gün 10-dan çox ölkə Xocalı soyqırımını rəsmən tanıyır. Bir gecədə 600-dən çox günahsız insan, onların arasında 100-dən çox qadın, 60-dan çox uşaq ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirilmişdir, mindən çox insan itkin düşüb".

**AZƏRTAC**

# Bakıda Özbəkistanın milli bayramı münasibətilə rəsmi qəbul təşkil olunub





**Özbəkistanın Azərbaycandakı səfirliyi ölkəsinin milli bayramı - Dövlət müstəqilliyinin 27-ci ildönümü münasibətilə sentyabrın 10-da rəsmi qəbul təşkil edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov rəsmi qəbulda iştirak edib.

Tədbir hər iki ölkənin dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.

Səfir Şerzod Fayziyev tədbirdə çıxış edərək ölkəsinin müstəqillik tarixindən danışıb. O, Özbəkistanda həyata keçirilən islahatların əhəmiyyətindən söhbət açıb, bu islahatların ölkənin inkişafına xidmət etdiyini deyib.

Səfir vurğulayıb ki, Xəzəryanı ölkələrlə dostluq əlaqələrinin inkişaf etdirilməsi Özbəkistan üçün prioritetdir. O, ölkəsinin Azərbaycan ilə əlaqələrin möhkəmləndirilməsinə önəm verdiyini qeyd edib. "Əməkdaşlığın inkişafında yeni mərhələnin şahidi oluruq. Sıx, etibarlı münasibətlərimiz dərin köklərə əsaslanır. Əminəm ki, əməkdaşlığımız dostluq və qardaşlıq münasibətlərimizi daha da möhkəmləndirəcək. Münasibətlərimiz xalqlarımızın mənafeyinə uyğun olaraq gələcəkdə daha da inkişaf edəcək", - deyə səfir bildirib.

Rəsmi qəbulda çıxış edən Baş nazir Novruz Məmmədov əlamətdar bayram münasibətilə Azərbaycan Prezidenti və Hökuməti adından Özbəkistan xalqını təbrik edib. Ölkələrimiz arasındakı əlaqələrin milli mənəvi və mədəni dəyərlərlə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən qaynaqlandığını söyləyən Baş nazir münasibətlərimizin belə möhkəm təməllər üzərində inkişaf edərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinin məmnunluq doğurduğunu vurğulayıb. O bildirib ki, ölkələrimiz arasında mövcud olan qarşılıqlı siyasi etimad və dialoq əməkdaşlığımızın daha da inkişafına və dərinləşməsinə zəmin yaradır.

Əlaqələrimizin inkişafında dövlətlərimizin başçılarının səmimi münasibətlərinin rolunu qeyd edən Novruz Məmmədov qardaş Özbəkistanın dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində, sosial-iqtisadi sahədə əldə etdiyi uğurların, onun beynəlxalq aləmdə artan nüfuzunun bizi sevindirdiyini söyləyib. Baş nazir ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişafında Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın rolunu vurğulayıb.

Azərbaycanın öz tərəfdaşları ilə birgə bütün istiqamətlərdə böyük nəqliyyat və enerji infrastrukturu layihələrini həyata keçirdiyini söyləyən Baş nazir Asiyadan Avropaya yükdaşımalarda ən qısa yol olan Bakı-Tbilisi-Qars dəmir yolunun Özbəkistan üçün əlverişli imkan olduğunu vurğulayıb. O əlavə edib ki, Azərbaycan-Özbəkistan əlaqələrinin genişlənməsi və dərinləşməsi Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin möhkəmlənməsinə xidmət edir. Bu baxımdan iqtisadi-ticari, humanitar, təhlükəsizlik, elm, təhsil, incəsənət gənclər və idman sahələrində əməkdaşlığımızın inkişaf etdirilməsində maraqlıyıq.

Daşkənd şəhərindəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin iki ölkə arasında humanitar əlaqələrin inkişafında mühüm rolunu qeyd edən Novruz Məmmədov, bu baxımdan dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin "Xəmsə"sinin özbək dilinə tərcümə edilərək nəşr olunmasının əhəmiyyətini vurğulayıb.

Baş nazir bildirib ki, ölkələrimiz beynəlxalq təşkilatlarda da fəal qarşılıqlı dəstək nümayiş etdirirlər. Özbəkistanın Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın beynəlxalq hüquq normalarına, dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı prinsiplərinə əsaslanan haqlı mövqeyinə nümayiş etdirdiyi dəstəyi yüksək qiymətləndiririk.

Novruz Məmmədov ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

**AZƏRTAC**

# Çexiyanın yeni səfiri etimadnaməsinin surətini Azərbaycanın xarici işlər nazirinə təqdim edib

**Xarici işlər naziri Elmar Məmmədyarov sentyabrın 10-da Çexiyanın Azərbaycana yeni təyin olunmuş səfiri Milan Ekert ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir Elmar Məmmədyarov Milan Ekerti ölkəmizdə səfir təyin olunması münasibətilə təbrik edib.

Səfir Milan Ekert etimadnaməsinin surətini nazir Elmar Məmmədyarova təqdim edib.

Diplomat fəaliyyəti dövründə Azərbaycan ilə Çexiya arasında ənənəvi dostluq münasibətlərinin inkişafı üçün səylə çalışacağını diqqətə çatdırıb. O, Azərbaycanın regionda Çex Respublikasının strateji və etibarlı tərəfdaşı olduğunu vurğulayıb.

Görüş əsnasında Azərbaycan ilə Çexiya arasındakı münasibətlərin mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri nəzərdən keçirilib. Ölkələrimiz arasında iqtisadi-ticarət və turizm əlaqələrinin daha da inkişaf etdirilməsi üçün böyük potensialın mövcud olduğu qeyd edilib. Həmçinin fəaliyyətə başlamış Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu xəttinin ikitərəfli ticarət münasibətlərinin inkişafına töhfə verəcəyinə əminlik ifadə olunub.

Nazir Elmar Məmmədyarov səfir Milan Ekertə fəaliyyətində uğurlar arzu edib.

**AZƏRTAC**

# "Los Angeles Times" qəzetinin ispandilli versiyasında Bakının gözəlliyindən bəhs edən məqalə dərc olunub

**ABŞ-ın nüfuzlu "Los Angeles Times" qəzetinin ispandilli versiyasında ("Hoy Los Angeles") "Bakı: Xəzər Dənizinin zinət tacı" başlıqlı geniş məqalə dərc edilib.**

Azərbaycanın Los-Ancelesdəki baş konsulluğundan AZƏRTAC-a bildiriblər ki, qəzetin baş redaktoru Alexandro Masielin müəllifli olduğu məqalədə müəllif Azərbaycana səfəri ilə bağlı təəssüratlarını bölüşür, ölkəmizin inkişafı, Bakının əsrarəngiz gözəlliyi, görməli yerləri və son illərdəki sürətli transformasiyası haqqında ətraflı məlumat verir. A.Masiel səfərdən əvvəl Azərbaycan haqqında təsəvvürünün olmadığını, ölkəmizin yalnız adı və yerləşdiyi coğrafiya haqqında məlumatlı olduğunu bildirir, sözügedən səfərin onun bütün baxışlarını dəyişdiyini və Azərbaycanın inkişafını öz gözləri ilə görməkdən məmnun olduğunu vurğulayır.

A.Masiel ölkəmizdə müxtəlif dinlərə mənsub insanların, o cümlədən müsəlmanların, yəhudilərin, ortodoks xristianlarının və katoliklərin dinc və əmin-amanlıq şəraitində yaşadıqlarını qeyd edir. Bu səpkidə o, Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevin fikirlərindən sitat gətirir: "Tolerantlıq və ya dözümlülük insanın onu narahat edən nəyəsə dözümlü yanaşması mənasını verir. Azərbaycanın nümunəsində isə bu tolerantlıqdan da yüksək yanaşmadır. Azərbaycanda bu, başqalarının inanclarına və adət-ənənələrinə hörməti özündə ehtiva edir. Bu isə ölkəmizdəki xalqların dinc birgə yaşayışını təmin edib".

Sonda müəllif oxucularını Azərbaycana səfər edərək bu ölkəni özləri üçün "kəşf" etməyə dəvət edir.

**AZƏRTAC**

# ADA Universitetinin müəllim və tələbələri şərəf andı içiblər






**Sentyabrın 10-da ADA Universitetinin müəllim və tələbələrinin şərəf andını içmələri mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanan tədbir ADA Universitetində təhsil alan tələbələrin öz ölkələrinin bayraqlarını səhnəyə gətirmələri ilə davam edib.

Tədbirdə Şərəf Məcəlləsini bu tədris ilində universitetə yeni qəbul edilmiş 540 bakalavr, 130 magistr, 35 müəllim imzalayıb.

Qeyd olunub ki, ADA Universitetində şərəf andının içilməsi hər yeni tədris ilinin əvvəlində keçirilən ənənəvi mərasimdir. Universitetə bu il qəbul olunan tələbələr, işə yeni başlayan müəllim və heyət üzvləri şərəf andını içərək Şərəf Məcəlləsini imzalamaqla bu ali məktəbin akademik əxlaq və dürüstlük prinsiplərinə sadiq qalacaqlarına söz veriblər.

Şərəf Məcəlləsi beş akademik əxlaq və dürüstlük prinsipindən ibarətdir: "Yalan danışma! Aldatma! Plagiatlıq etmə! Ayrı-seçkilik salma! Bu prinsipləri pozmaqda başqalarına yardım etmə!". ADA Universitetinin fəlsəfəsi akademik əxlaq və dürüstlüyün sanksiya, qadağa və hədələrin tətbiqi ilə deyil, bu dəyərləri yüksək tutan akademik mədəniyyətin aşılanmasına arxalanır. Bir qayda olaraq, tədris ilinin əvvəlində yeni tələbələr akademik əxlaqın dünyada ümumi qəbul edilmiş standartları barədə maariflənmək üçün dekanlar və müəllimlər ilə müzakirə panelləri keçirirlər.

Tədbirdə ADA Universitetinin rektoru Hafiz Paşayev qısa müddətdə əldə edilən nailiyyətlərdən, təhsil ocağındakı sürətli inkişafdan söz açıb, uğurların davamlı olacağını bildirib. Rektor bu tədris ilində 600-dək müəllim və tələbənin universitetə qəbul olunduğunu diqqətə çatdırıb. H.Paşayev builki məzunların 85 faizdən çoxunun ilk üç ayda işlə təmin olunduğunu vurğulayıb. Rektor universitetə qəbul olunan yerli və xarici tələbələri, o cümlədən müəllimləri yeni dərs ili münasibətilə təbrik edib, müvəffəqiyyətlər arzulayıb.

Sonra ADA Universitetinin himni səsləndirilib.

Tədbir konsert proqramı ilə davam edib.

**AZƏRTAC**

# Moldovada Şərab Turizmi üzrə 3-cü Qlobal konfrans keçirilib

**Moldovanın paytaxtı Kişineu şəhərində Dünya Turizm Təşkilatının və Moldova Hökumətinin birgə təşkilatçılığı ilə Şərab Turizmi üzrə 3-cü Qlobal konfrans keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbirdə turizm sektorunun sürətlə inkişaf edən sahələrindən biri olan şərab turizminin ölkələrin iqtisadiyyatının inkişafına töhfəsinə və şərabçılığın turizmin digər sahələri ilə əlaqəsinə dair müzakirələr aparılıb.

Tədbiri açan Moldovanın Baş naziri Pavel Filip ölkəsində şərab turizminin inkişafı barədə məlumat verib. Bildirib ki, şərabçılıq sahəsinə dövlət qayğısı nəticəsində bu gün ölkəsi dünyada qabaqcıl yerlərdən birini tutur.

Dünya Turizm Təşkilatının baş katibinin müavini Ceymi Kabal çıxışında turizmin bütün sahələri üzrə inkişafa nail olunduğunu qeyd edərək şərab turizminin əhəmiyyətinə diqqəti yönəldib. O, Şərab Turizmi üzrə Qlobal konfransların keçirilməsinin bu sahənin daha da inkişaf etdirilməsinə xidmət etdiyini bildirib.

Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri, habelə Ümumdünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Anar Məhərrəmov şərabçılığın ölkəmizdə prioritet sahələrdən biri olduğunu diqqətə çatdırıb. A.Məhərrəmov dövlət başçısının diqqət və qayğısı nəticəsində bu gün respublikamızda həyata keçirilən sosial-iqtisadi siyasətin və islahatların təzahürü kimi şərabçılıq mədəniyyətinin şöhrətinin bərpa edildiyini, bu məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsi və onların dünya bazarında layiqli yer tutmasına əsas yaratdığını xüsusi vurğulayıb.

Qeyd edib ki, ölkədə qəbul edilmiş dövlət proqramları nəticəsində şərabçılığın inkişafı böyük vüsət alıb, "milli brend" adı altında ölkə şərablarının geniş şəkildə satışı və təşviqi, həmçinin digər ölkələrdə Azərbaycan şərab evlərinin açılması uğurla həyata keçirilir.

Konfransda şərabçılıq sahəsi üzrə tanınmış beynəlxalq ekspertlər çıxış edərək şərab turizminin inkişafı, bu sahədə mövcud problemlər barədə geniş müzakirələr aparılar.

Dünya Turizm Təşkilatının himayəsi altında şərab turizmi üzrə qlobal konfransların keçirilməsi tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılanaraq, bu cür konfransların şərab turizminin inkişafına töhfə verdiyi və şərabçılıq sahəsində qabaqcıl dövlətlərin və tanınmış ekspertlərin təcrübəsinin öyrənilməsi baxımından vacibliyi vurğulanıb.

Tədbirdə Şərab Turizmi üzrə 4-cü Qlobal konfransın Çilidə keçirilməsinə dair razılıq əldə edilib.

**AZƏRTAC**

*Leonid Kalaşnikov:*

# Rusiya-Azərbaycan münasibətlərinin daha da inkişafı üçün yaxşı perspektivlər var



**Rusiya ilə Azərbaycan arasındakı münasibətlərin daha da inkişafı üçün yaxşı perspektivlər var.**

AZƏRTAC xəbər verir ki, bu sözləri Rusiya Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikov sentyabrın 10-da "Sputnik Azərbaycan" multimedia mətbuat mərkəzi tərəfindən təşkil olunan, Azərbaycan-Rusiya münasibətlərinə həsr edilən Bakı-Moskva videokörpüsü zamanı deyib.

Leonid Kalaşnikov vurğulayıb ki, Rusiya-Azərbaycan münasibətləri geosiyasi əsas üzərində qurulub. Azərbaycanın addımları hər zaman ardıcıldır.

Ölkələrimiz arasında humanitar əlaqələrə toxunan L.Kalaşnikov deyib ki, Azərbaycanda rus dili qorunub saxlanılır. Bu ölkədə 360 məktəbdə rus dilində tədris mövcuddur.

Rusiya və Azərbaycan prezidentlərinin görüşləri haqqında danışan komitə sədri sentyabrın 1-də Soçi şəhərində imzalanmış 16 sənədin ikitərəfli münasibətlərin inkişafı baxımından əhəmiyyətini vurğulayıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Rasim Musabəyov bildirib ki, Azərbaycan-Rusiya münasibətlərinin inkişafı çox önəmlidir. Ölkələrimizin siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə yaxşı əlaqələri var.

Deputat vurğulayıb ki, Prezident İlham Əliyevin sentyabrın 1-də Rusiyaya səfəri, orada keçirdiyi görüşlər və aparılan danışıqlar bir daha Rusiya-Azərbaycan münasibətlərinin dərinləşməsinin aktuallığını göstərdi. Parlamentarilər də bu əməkdaşlığın inkişaf etdirilməsi üçün əllərindən gələni edəcəklər. Azərbaycanla Rusiyanın tərəfdaşlığı çox praqmatikdir.

**AZƏRTAC**

*Hikmət Hacıyev:*

# Ermənistan rəhbərliyi qəsdən və ya bilməyərəkdən vəziyyətin gərginləşməsinə xidmət edən açıqlamalar verir

**Ermənistanın Baş nazirinin Moskvada Azərbaycanın Dağlıq Qarabağ bölgəsini öz təsəvvüründə Ermənistanın bir hissəsi hesab edir deyə açıqlaması beynəlxalq hüququn norma və prinsiplərinə, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə hörmətsizlik və ATƏT-in Minsk Qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə zərbədir.**

AZƏRTAC xəbər verir ki, bu fikirləri Ermənistanın Baş naziri Nikol Paşinyanın Moskvada Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı açıqlamasını şərh edən Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev deyib.

"Bununla, Baş nazir səviyyəsində Ermənistanın əsl niyyətinin münaqişənin danışıqlar yolu ilə həll edilməsi deyil, Azərbaycan ərazilərinin qanunsuz işğalını davam etdirmək olduğu nümayiş etdirilir. Ermənistan rəhbərliyi qəsdən və ya bilməyərəkdən vəziyyətin gərginləşməsinə xidmət edən bu kimi açıqlamanı ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrindən birinin paytaxtında və həmsədrlərin vasitəçiliyi ilə nazirlər səviyyəsində Nyu-Yorkda keçirilməsi planlaşdırılan görüş ərəfəsində edir. Həmçinin bu açıqlama ATƏT-in baş katibinin gələn həftə Azərbaycana planlaşdırılan səfəri ərəfəsinə təsadüf edir", - deyə XİN-in mətbuat xidmətinin rəhbəri söyləyib.

Açıqlamada bildirilir ki, yaxın zamanda Ermənistan rəhbərliyinin münaqişənin substantiv danışıqlar yolu ilə həllində, regionda davamlı sülhün və sabitliyin təmin olunmasında, yoxsa son iki onillik ərzində Ermənistan rəhbərliyində olan səhra komandirlərinin müharibə siyasətini davam etdirməkdə maraqlı olduğu bəlli olacaq.

Hikmət Hacıyev bir daha vurğulayıb ki, bu kimi açıqlamalarla vəziyyətin gərginləşməsinə görə məsuliyyət tam şəkildə Ermənistan və onun rəhbərliyinin üzərinə düşür.

**AZƏRTAC**

# Bosniya və Herseqovinada Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunmuş Təcili Tibbi Yardım Mərkəzinin açılışı olub









**Sentyabrın 10-da Bosniya və Herseqovinanın Kotor Varoş şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə inşa olunan Təcili Tibbi Yardım Mərkəzinin yeni binasının açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, mərasimdə Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü, Prezident Mladen İvaniç, Azərbaycanın bu ölkədəki səfiri Eldar Həsənov, Serb Respublikası səhiyyə nazirinin müşaviri Miloyko Qruyiçiç, Kotor Varoş şəhərinin meri Zdenko Sakan, Səhiyyə Mərkəzinin direktoru Vladimir Bibiç, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin və yerli ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Tədbirdə çıxış edən Anar Ələkbərov iştirakçılara Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səmimi salamlarını çatdırıb. Qeyd edib ki, Heydər Əliyev Fondu Azərbaycan ilə yanaşı, dünyanın müxtəlif ölkələrində təhsil, mədəniyyət, səhiyyə sahələrində layihələr, xeyriyyə tədbirləri həyata keçirir. Dini tolerantlığın hökm sürdüyü Azərbaycanda Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələr çərçivəsində çoxlu sayda dini məbədlər təmir və bərpa edilib, eləcə də tarixi-memarlıq abidələrinin bərpası reallaşdırılıb, mütəmadi olaraq multikulturalizmi və tolerantlığı təbliğ edən elmi konfranslar və forumlar keçirilir.

Anar Ələkbərov bildirib ki, Bosniya və Herseqovina Azərbaycan ilə dost ölkədir və ölkələrimiz arasında dərin qarşılıqlı münasibətlər mövcuddur. Fondun reallaşdırdığı bu layihələr ölkələrimiz və xalqlarımız arasında əlaqələrin genişlənməsinə şərait yaradır.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü, Prezident Mladen İvaniç ölkəsində növbəti sosial və səhiyyəyönümlü layihənin uğurla başa çatdırıldığına görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevaya minnətdarlığını ifadə edib, bu layihələrin Bosniya və Herseqovina xalqlarının sevincinə səbəb olduğunu bildirib.

Kotor Varoş Səhiyyə Mərkəzinin direktoru Vladimir Bibiç çıxış edərək Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə, o cümlədən Bosniya və Herseqovinada həyata keçirdiyi mühüm sosial-humanitar layihələri xalqlarımız arasında həmrəyliyin təzahürü kimi qiymətləndirib, xeyriyyəçilik fəaliyyətinin nəticəsi olaraq bu gün Kotor Varoş şəhərində istifadəyə verilən və müasir avadanlıqla təmin edilən Təcili Tibbi Yardım Mərkəzinin, habelə Heydər Əliyev Fondu tərəfindən hədiyyə edilmiş təcili tibbi yardım nəqliyyat vasitəsinin yerli əhali üçün əhəmiyyətini vurğulayıb, Heydər Əliyev Fondunun rəhbərliyinə dərin təşəkkürlərini bildirib. Qeyd edilib ki, bu mərkəz son dövrlər ərzində Kotor Varoşda ərsəyə gətirilən ən müasir və yüksək standartlara cavab verən tikinti layihəsidir və yerli əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayacaq.

Şəhər meri Zdenko Sakan Heydər Əliyev Fondunun Kotor Varoş bələdiyyəsinin həyatında mühüm rol oynayan Təcili Tibbi Yardım Mərkəzinin yeni binasının inşasına göstərdiyi dəstəyə görə Kotor Varoş Bələdiyyə Məclisinin qərarı əsasında cari ilin aprelində "Qızıl Diplom" ilə təltif edildiyini deyib və bələdiyyənin yüksək mükafatını Fondun icraçı direktoru Anar Ələkbərova təqdim edib.

Sonra Kotor Varoş şəhərinin Səhiyyə Mərkəzi nəzdində Təcili Tibbi Yardım Mərkəzinin yeni binasının açılışı olub, binaya baxış keçirilib.

Tədbir zamanı Kotor Varoş şəhər sakinləri mətbuat nümayəndələrinə müsahibələrində yaşadıqları bölgəyə göstərilmiş diqqət və dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürlərini ifadə ediblər.

Tibbi Mərkəzdə diş texniki vəzifəsində çalışan Bilyana Lukiç bildirib ki, bu mərkəzdə işlədiyi yeddi il ərzində ilk dəfə olaraq sağlamlıq mərkəzində belə bir yeni təcili tibbi yardım xidmətinin qurulduğuna şahid olur. O deyib: "Bu mərkəzin açılması Kotor Varoş əhalisi üçün çox şey deməkdir. Yeni mərkəz burada çalışan əməkdaşların işini asanlaşdıracaq. Heydər Əliyev Fondu, həmçinin bizə ən müasir avadanlıqla təchiz edilmiş təcili tibbi yardım maşını bağışlayıb. Əlbəttə ki, bu nəqliyyat vasitəsi hər hansı bir fövqəladə vəziyyətdə bizə çox kömək edəcək. Ümidvaram ki, gələcəkdə əməkdaşlığımızı davam etdirəcəyik".

Səhiyyə Mərkəzinin direktoru Vladimir Bibiç bu əvəzolunmaz layihə üçün Azərbaycan Prezidenti İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və Heydər Əliyev Fonduna təşəkkürünü çatdıraraq bildirib: "Təcili tibbi yardım xidmətinin yenidən qurulması, bizə bağışlanan son model təcili yardım maşını üçün minnətdaram. Bu yardım layihəsi çərçivəsində müasir avadanlıqla təchiz edilmiş mərkəz inşa edilib. Yeni mərkəzə görə Kotor Varoş əhalisi çox xoşbəxtdir və bu mərkəz şəhərimizdə tibbi xidmətlərin keyfiyyətini daha da yüksəldəcək".

Tibbi mərkəzdə müalicə alan xəstələrdən Qoran Mitiç fürsətdən istifadə edərək, Azərbaycan hökumətinə yerli sakinlər adından öz təşəkkürünü çatdırıb. O qeyd edib ki, mərkəzə hədiyyə edilən təcili tibbi yardım maşını tezliklə öz yüksək dəyərini göstərəcək və uzaq ərazilərdə yaşayan, tibbi yardıma ehtiyacı olan sakinlərin imdadına çatacaq.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü, Prezident Mladen İvaniç müsahibəsində bildirib ki, dəfələrlə Azərbaycanda səfərdə olub və hər səfərindən böyük məmnunluq hissi ilə geri dönüb. Azərbaycan Prezidenti İlham Əliyevlə səmimi dostluq münasibətlərinə malik olduğunu söyləyən M.İvaniç kiçik Kotor Varoş icmasına dəstək göstərməyi şəxsən xahiş etdiyini bildirib. "Mən çox şadam ki, Heydər Əliyev Fondu bu layihəni öz üzərinə götürüb. Bu layihə burada yaşayan insanlar və bütün icma üçün çox böyük önəm daşıyır, bu regionda müsəlman, katolik və ortodoks əhali sülh şəraitində birgə yaşayırlar. Bir daha Prezident İlham Əliyevə və Heydər Əliyev Fonduna öz təşəkkürlərimi çatdırıram", - deyə Mladen İvaniç vurğulayıb.

Rəyasət Heyətinin sədri Azərbaycan xalqı ilə mehriban və dostluq münasibətlərini bir daha vurğulayaraq, gələcəkdə bu kimi layihələrin və sıx əməkdaşlığın davam edəcəyinə ümidvar odluğunu bildirib.

**AZƏRTAC**

# AMEA-nın prezidenti Kubanın ölkəmizdəki səfiri ilə görüşüb

**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadə Kuba Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Alfredo Nieves Portuondo ilə görüşüb.**



Akademik Akif Əlizadə qonağa Akademiyanın yaranma tarixi və AMEA-nın prioritet elmi istiqamətlərdə fəaliyyətindən danışıb. Azərbaycan alimlərinin MDB ölkələri, eləcə də Avropanın aparıcı elmi mərkəzlərində mühüm elmi layihələrə rəhbərlik etdiyini, o cümlədən AMEA-nın elmi müəssisələrindən doktorantların həmin mərkəzlərdə təcrübə keçdiyini səfirin diqqətinə çatdırıb.

Səfir Alfredo Nieves Portuondo səmimi qəbula görə AMEA rəhbərliyinə minnətdarlığını bildirib. Diplomat ölkəsinin tarixi, coğrafi mövqeyi, elm və təhsil sahəsindəki uğurları və mədəniyyəti barədə geniş məlumat verib. Ölkələrimiz arasında elm və təhsil sahəsində əlaqələrinin inkişaf etdirilməsinin önəminə toxunan səfir bunun üçün yaxşı imkanların olduğunu vurğulayıb.

Səfir ölkəsinin səhiyyə sahəsində uğurları ilə dünyada məşhur olduğunu bildirib. Qeyd edib ki, Kubanın müvafiq elmi institutları ilə tibb və biotexnologiya sahəsində əməkdaşlıq üçün yaxşı potensial mövcuddur.

Vaxtilə neft-qaz sahəsində Azərbaycanın geniş təcrübəsindən faydalanmaq məqsədilə kubalı tələbələrin Azərbaycana təhsil almaq üçün gəldiyini deyən diplomat, hazırda onların öz ölkəsində bu sahəyə peşəkar kadr kimi böyük töhfələr verdiyini də söyləyib.

Görüşdə tərəflər arasında müxtəlif elmi sahələrdə əməkdaşlıq imkanları müzakirə edilib. AMEA prezidenti Kuba ilə elmi əlaqələrin artırılmasına, eləcə də biotexnologiya sahəsində əməkdaşlıqda maraqlı olduğunu deyib. Səfir isə öz növbəsində diplomatik fəaliyyəti dövründə AMEA ilə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

Tərəflər həmçinin hər iki ölkənin elmi qurumları arasında anlaşma memorandumunun hazırlanması və gələcəkdə bununla bağlı görüşlər keçirməyin vacibliyini vurğulayıblar.

Sonda səfir Alfredo Nieves Portuondo və akademik Akif Əlizadə bir-birilərinə xatirə hədiyyələri təqdim ediblər.

**AMEA-nın İctimaiyyətlə əlaqələr şöbəsi.**

# Azərbaycan "İTU Telecom World 2018"də təmsil olunur



**Beynəlxalq Telekommunikasiya İttifaqı tərəfindən ənənəvi olaraq hər il təşkil edilən "İTU Telecom World" beynəlxalq sərgi-konfransı sentyabrın 10-da öz işinə başlayıb. Azərbaycan "İTU Telecom orld 2018"də təmsil edilir.**

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, sərgi-konfransda nazir müavini Elmir Vəlizadənin rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edir. Nümayəndə heyətinin tərkibində nazirliyin qurumları, özəl İKT şirkətləri və startaplar təmsil olunur.

Beynəlxalq arenada telekommunikasiya sahəsində ən böyük tədbir hesab olunan "İTU Telecom World" bu il Cənubi Afrika Respublikasının Durban şəhərində keçirilir. Tədbir çərçivəsində İKT sahəsi üzrə müxtəlif forumlar, seminarlar, təqdimatlar təşkil ediləcək, sərgi hissəsində isə milli pavilyonlarda ölkələrin, şirkətlərin müxtəlif həlləri nümayiş etdiriləcək.

Sərgi-konfransın rəsmi açılış mərasimində Cənubi Afrika Respublikasının prezidenti Matamela Siril Ramafoza iştirak edib. "İTU Telecom World 2018"də daha "ağıllı" rəqəmli inkişaf naminə innovasiyalarla bağlı əsas məsələlər müzakirə olunacaq.

Sentyabrın 13-dək davam edəcək qlobal tədbirin beynəlxalq tərəfdaşlarından biri də Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyidir. Müxtəlif dövlətləri təmsil edən şirkətlərin qatıldığı sərgidə Azərbaycanın Milli Pavilyonu quraşdırılıb. Milli Pavilyonda ölkəmizdə İKT sahəsində əldə olunan nailiyyətlər, innovativ xidmətlər, tətbiqlər və həllər nümayiş edilir.

Azərbaycan 2009-cu ildən etibarən davamlı olaraq "İTU Telecom World" sərgilərində Milli Pavilyon ilə təmsil olunur.

**AZƏRTAC**



# "Aztelekom"da təcrübə keçən bəzi tələbələrə iş təklif olunub

**"Aztelekom" MMC-nin tələbələr üçün keçirdiyi "Yay təcrübəsi 2018" proqramı başa çatıb.**



Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Xəzər, Bakı Mühəndislik, Azərbaycan Dövlət İqtisad universitetlərinin və Azərbaycan Diplomatik Akademiyasının III və IV kurs tələbələrinin iştirakı ilə keçirilən təcrübə proqramı üç aylıq müddəti əhatə edib.

"Aztelekom"un genişzolaqlı xidmətlər, informasiya texnologiyaları, texniki, maliyyə və insan resursları departamentlərində təcrübə keçən tələbələr iş prosesində birbaşa iştirak edərək müasir texniki avadanlıqla tanış olmaq imkanı əldə edib. Proqramın yekununa həsr olunmuş tədbirdə hər bir iştirakçıya "Aztelekom" MMC-nin sertifikatı və hədiyyələri təqdim olunub.

Tələbələrlə görüşdə "Aztelekom" MMC-nin insan resursları departamentinin direktoru Səidə Hüseynova bildirib ki, bu kimi layihələr gələcəkdə uğurlu əməkdaşlıq üçün istedadlı kadrların müəyyən olunmasına imkan yaradır. Bundan əlavə, gənclərə uğurlu işgüzar həyatla bağlı faydalı məsləhətlər də verilib.

Ölkədə telekommunikasiya sahəsində ən iri müəssisələrdən olan "Aztelekom" MMC tələbələrə və istedadlı gənclərə karyeranın qurulmasında mütəmadi dəstək olmaq üçün layihəni gələcəkdə də davam etdirəcək.

Təcrübədə iştirak edərək yüksək nəticə göstərən tələbələrin adları təşkilatın kadr bazasında ehtiyat və potensial kadrlar statusunda saxlanılacaq. "Yay təcrübəsi 2018" proqramını uğurla başa vuran bir neçə tələbəyə mövcud vakansiyalar üzrə iş təklifləri edilib.

**AZƏRTAC**


Bakı Xoreoqrafiya Akademiyası
Açıq Tenderə Dəvət Edir
Tender 1 (bir) lot üzrə keçirilir:

Lot-1. Yumşaq inventarların alınması (balet və rəqs geyimlərinin alınması).

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə, yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

Lot üzrə iştirak haqqı 50 (əlli) manat. Tel.: (012) 597 24 82 (Həmid Məhərrəmov)

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:
Dövlət Xəzinədarlıq Agentliyi
KOD: 210005
VÖEN: 1401555071
Müxbir Hesabı:
AZ41NABZ01360100000000003944
SWİFT CTREAZ 22
Bakı Xoreoqrafiya Akademiyası
Hesab:
AZ30CTRE00000000000002178201
VÖEN: 1400151881
Təsnifat kodu: 142340
Səviyyə: 7
Ünvan: Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi, 75.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:
-tenderdə iştirak etmək üçün ərizə;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);
-tender təklifi qiymətinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı gündən ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 16 oktyabr 2018-ci il saat 17:00-a qədər, iş qrafiki, tender təklifi və bank zəmanətlərini isə möhürlənmiş ikiqat zərfdə 24 oktyabr 2018-ci il tarixdə saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Təklif zərfləri 25 oktyabr 2018-ci il tarixdə saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

Tender Komissiyası.



**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidməti**

**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidməti, dəftərxana və təsərrüfat mallarının eləcə də idarənin xərcləri üzrə istifadə olunan mal-materialların kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+994 12) 562-85-13 (daxili 120) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 2018-09-13, saat 17:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov 7A*

**Tender Komissiyası.**



**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidmətinin Respublika Bitki Mühafizə Mərkəzi**

**BİLDİRİŞ**

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidmətinin Respublika Bitki Mühafizə Mərkəzi, dəftərxana və təsərrüfat mallarının kotirovkalar sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (+994 12) 563-58-41 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 2018-09-13, saat 17:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *AZ1106, Bakı şəhəri, Nərimanov rayonu, Nəcəf Nərimanov 7A*

**Tender Komissiyası.**


# DÜNYA BUGÜN
*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## ❑ BƏŞƏR ƏSƏD İDLİBDƏ KİMYƏVİ SİLAHIN TƏTBİQİNƏ İCAZƏ VERDİ



Suriya prezidenti Bəşər Əsəd İdlib əyalətinin terrorçulardan təmizlənməsi ilə bağlı əməliyyat zamanı hökumət qoşunlarına xlor qazından istifadə etməyə icazə verib. Bu barədə sentyabrın 10-da "The Wall Street Journal" nəşri xəbər verib.

